UOT 7

SİDDİQƏ HACIYEVA*
TÜRKAN QULİYEVA*

# KERAMİKA SƏNƏTİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

*Dekorativ tədbiqi sənətin bu növünün tarix boyu mənsub olduğu xalqın məişəti ilə bağlı olub onun milli-mənəvi dəyərlərini, dünya görüşünü, bədii etstetik zövqünü özündə etiva edir.Keramikadan yaradılan sənət nümünələri hər zaman idea zənginliyi, forma və üslub müxtəlifliyinəı görə maraq doğurub. Məqalədə Azərbaycan keramika sənətinin inkişafina nəzər salınmış, onun bədii xüsusiyyətləri vurğulanmışdır.*

**Açar sözlər:** *Dulusçuluq, plastik forma, zoomorf qablar, ornament.*

Qədim dövr sənətkarlığının əsas sahələrindən olan dulusçuluq, özündə həm rəngkarlığın, həm heykəltəraşlığın, həm də qrafikanın vəhdətini təşkil edir. Dulusçuluq sənətinin tədqiqi cəmiyyətin inkişafının, məhsuldar qüvvələrinin və istehsal münasibətlərinin müəyyənləşdirməsində böyük əhəmiyyət daşıyır. Qədim kökləri olan və kütləvi sənət sahəsi hesab edilən dulusçuluğun belə məsələlərin tədqiq olunmasında köməyi əvəzsizdir. Bu cəhətdən orta əsrlər dövrünə aid dulusçuluq sənət nümunələrinin öyrənilməsi daha maraqlı nəticələr çıxarmağa imkan verir. Dulusçuluq məmulatları qazıntılar zamanı ən çox rast gəlinən tarixi nümunələr sırasındadır. Buna əsaslanaraq deyə bilərik ki, dulusçuluq, tətbiqi sənətin xüsusi bir növü kimi öz-özlüyündə hər zaman tarix yazmışdır.

Dərin soy, kök və milli-mənəvi dəyərlərə malik xalqların qədim tarixinin sübutu onun keramikası ilə müəyyən edilir. Dulusçuluq sənəti bütün insanlıq üçün ən dəyərli maddi-mədəni irslərdən hesab olunur.

Ümumilikdə minilliklərdən bəri insan sivilizasiyasının tarixi daha çox keramika ilə ölçülür. İncəsənətin bu növü tarix boyu mənsub olduğu xalqın məişəti ilə bağlı olub onun milli-mənəvi dəyərlərini, dünya görüşünü, bədii etstetik zövqünü ifadə edir.

Mütəxəssislərin başlanğıcını neolit dövrünə aid etdikləri bu sənət növü ilk zamanlar yalnız qadınlar tərəfindən icra edilməsinə baxmayaraq enneolit dövründə tətbiq edilən bir sıra yeni texniki nailyyətlər nəticəsində müstəqil sənət sahəsinə çevrilmişdir.

Qazıntılar zamanı aşkar olunmuş keramika məmulatları formasına, ölçülərinə, materialına və bişirilmə texnologiyasına görə bir-birindən tamamilə fərqlənirlər.

Dulusçuluq tarixi haqqında dolğun məlumatları bu sənət növünə aid materialların aşkar olunduğu qədim yaşayış yerlərindən əldə olunmuşdur. Arxeoloji abidələrimiz hesab edilən bu yaşayış yerlərinə misal olaraq Azərbaycanın bir çox bölgələrinin adlarını qeyd edə bilərik. Onlardan Naxçıvan, Dağlıq Qarabağ, Quba, Qusar , Mingəçevir, Şamaxı, Qax və.b yaşayış yerlərini nümunə göstərə bilərik (1, s 3-7).

Qazıntılar zamanı adlarını sadaladığımız bölgələrin küp qəbrləri, katakompları, daş qutu qəbirləri və yaşayış yerlərinin tədqiqi zamanı aşkarlanmış məmulatlar bunlardan ibarətdir: Zoomorf qablar, küpələr, dopu, gil qazanlar, bardaq qırıqları, iri küp parçaları, təkayaqlı piydanlar, camlar, sərniclər, oyuncaqlar, təsərrüfat küplərinin ağız hissələri, yastı nimçə qırıqları, su qabları, çıraqlar, qırmızı və qara rəngli qablar iy başlığı, və müxtəlif həcmli dolçalar.

Eyni zamanda Naxçıvanda da Erkən Tunc dövründə əsas istehsal sahələrindən biri dulusçuluq olmuşdur. Naxçıvanın Kür-Araz mədəniyyəti abidələrindən aşkar olunan dulus kürəsinin qalıqları və çoxsaylı keramika məmulatı dulusçuluğun yüksək inkişaf səviyyəsinə malik olduğunu, müxtəlif mərhələdən keçdiyini göstərir.

Kür-Araz mədəniyyətinin erkən mərhələsinə aid olan qablar yaxşı yoğrulmuş gildən hazırlanmış keyfiyyətli bişirilmiş və anqoblanmışdır ( 2, s 58).

Naxçıvanın I Kültəpə, Ovçular təpə, Naxçıvançay, Şortəpə, Sirabçay və Qahabçay vadisində, Uçan Ağıl yaşayış yerlərində dulusçuluq məmulatları rast gəlinmişdir. Buradan aşkarlanmış keramika nümunələri Azərbaycanın digər yaşayış bölgələrindən fərqli olaraq daha zəngin və texnoloji cəhətdən daha irəlidə olmuşdur. Naxçıvanda aşkarlanmış keramika nümunələri sırasında boyalı keramika növləri üstünlük təşkil etmişdir (4, s 6-8).

Orta əsr dulusçularının texniki və bədii axtarışları sayəsində, sadə görünüşlü qablar, maraqlı bədii görünüşlü keramika nümünələrinə çevrilmişdir. Müxtəlif yerlərdə qazıntı zamanı tapılmış keramik nümünələr istər hazırlanması, istərsə də forma və bədii xususiyyətlərinə görə oxşar olmasına baxmayaraq, ayrı-ayrı şəhərlərin bəzək üsulları, rəng həlli,dekorunun üslub xususiyyətlərailə fərqlənirdi.

VIII-X əsrlərdə bədii cəhətdən yenicə formalaşan şirli saxsı məmulatın texnoloji üsulları Yaxın Şərqin bədii keramikası ilə sıx əlaqədə və xronoloji cəhətdən eyni vaxtda inkişaf edirdi. Yerli keramika məmulatının dekorunda Yaxın Şərqdə məlum olan bütün texnoloji üsullar öz əksini tapmışdır.Qab üzərində anqobla rəsm, anqoblaşmış yerlik üzərində rəngli boyalarla rəsm və cızma dekorla işləmə üsulu geniş inkişaf tapmışdır.Lakin Azərbaycan şirli keramikasının ilk orta əsr nümünüələri tamamilə özünəməxsus xususiyyətlərə malik olub, Zaqafqaziya və Yaxın Şərqin eyni dövr keramika məmulatından tamamilə fərqli, orjinal dekor üslubu sənət nümünələri kimi fərqlənir (3, s 21).

Keramikada yaranmış texniki vasitələr, yəni polixrom rəsm üsulu ilə(IX), anqoblu səth üzərində cizma rəsmin rənglə birgə işlənməsi üsülü (X əsr) ilə orta əsr keramik məmulatların dekorunda əsaslı dönüş etmişdir.

Müxtəlif qədim yaşayış yerlərindən çoxlu miqdarda müxtəlif həcmli və formalı bəzək əşyaları, qab qırıqları, metal əşyalar tapılmışdır. Yaxşı cilalanmış və qırmızı rəng alana qədər bişirilmiş, eləcədə bişirilmə səviyyəsindən asılı olaraq qara və boz rəngli gil qablara təsadüf edilmişdir. Bunuda qeyd edək ki, buradan aşkarlanmış dulusçuluq məmulatlarının əksəriyyəti dulus çarxında istehsal olunmuşdur.

IX əsrdən başlayaraq şirsiz keramika məmulatının keyfiyyəti xeyli yaxşılaşmağa başlayır və onların bədii görünüşü müxtəlif dəyişikliyə məruz qalır. Bu dövrün keyfiyyətli gildən hazırlanmış nazik divarlı qabları plastik formalarına, dəqiq işlənmələrinə görə xüsusilə seçilirlər. IX əsrdən başlayaraq, keramika məmulatının bəzəyində müxtəlif dekor vasitələrindən daha geniş istifadə edilirdi (3, s 27).

IX-X əsr şirsiz keramika məmulatının dekorunda işlədilən xarakterik bəzək vasitələrindən biri də yapışdırma naxışlardır. Nadir qab nümunələrində təsadüf edilən bu bəzək motivləri əsasən yastı gil düymələrdən ibarət olub, qabların qulplarına, boğaz və çiyin hissəsinə bərkidilirdi (3, s 27).

Əsasəndə həndəsi və stilizə edilmiş nəbati naxışlarla zəngin bu keramika məmulatının bəzəyində nadir hallarda heyvan, quş və insan təsvirinə də rast gəlinir.

Orta əsrlərdə yaradılan keramika nümunələri əsasında dekorativlik xüsusiyyətləri daşıyırdı. Bu dövr keramika məmulatları məişət tələbatını ödəməklə bərabər interyerlərin dekorativ həllini artırmaq məqsədini daşımışdır. Həmin dövrdə keramika istehsalında tətbiq olunan mərhələ onun naxışlanma prossesi idi.

Etnoqrafik müşahidələr göstərir ki, gil qabların naxışlanması iki mərhələdə-birincisi, qab formalaşdırıldıqdan və qabın yalnız naxışlanacaq hissəsi hazırlandıqdan sonra; ikincisi, basma üsulu ilə aparılır (1. s 32).

Bu dövr keramikaları üzərində qazma, yapma, basma və möhürləmə olaraq dörd qrup

naxış müşahidə olunur. Bu naxışlar arasında ilk və geniş yayılmış naxış qazma üsulu ilə yaradılan naxışlardır.

Boya üsulu ilə dekorativlik qatılan saxsı qablar iki üsul ilə bəzədilirdi. Şirə üstü və şirə altı boyama. Şirə üstü boyama bir başa gil qab üzərinə tətbiq edilir. Şirə batırılaraq odda qızdırılır. Şirə altı boyama üsulunda isə yüksək temprature davamlı boyalardan istifadə edilirdi. Orta əsr Azərbaycan keramikasında şirə üstü boyama şirə altı boyamaya nisbətən az istifadə olunurdu

Oyma üsulu Azərbaycanda geniş yayılmışdı. Bu üsulla əsasən kasa, nimçə tipli qablar bəzədilirdi. Yüksək sənətkarlıqla yonulmuş və boyanmış bu qablar üzərində müxtəlif növlü ornamentlər, quş heyvan hətta insan təsvirləri çəkilirdi. Oyma bəzəkli qablarda əsasən yaşıl, sarı və bənövşəyi rənglərdən istifadə olunurda. Bu tipli qablara Gəncə ərazilərində daha çox rastlanılır.

Qabartma üsulu isə xüsusi qəliblər vasitəsi ilə tətbiq olunurdu. Həmin bu qəliblər vasitəsi ilə alınan qabartma təsvirlə rsadəcə qablara dekorativ görünüş qazandırmırdı. Eyni zamanda saxsı məmulatları istehsal edən ustaları və emalatxanaları bir birindən fərqləndirirdi. Bu fərqə misal olaraq demək olarki, Qəbələ saxsı qabları üzərində şir və quş rəsimləri olduğu hada, Beyləqan saxsı məmulatları üzərindəki yarım dairə şəkilli qönçələri ilə seçilir.

Bir çox tarixi mənbələrdən bizə məlumdurki bu dövrdə Azərbaycanda saxsı məmulatlarla yanaşı bişmiş kərpic, su boruları və müxtəlif bədii kaşılar da istehsal edilirdi.

## ƏDƏBİYYAT


1. Orucov A. Ş. İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq. Bakı: Elm, 1989.- s. 72.
2. Vaxşəliyev V., Quliyeva F. Naxçıvan tarixi abidələri. Bakı: Nurlan, 2017, 212 s
3. Rasim Əfəndi. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2007, 160 səh. + 112 səh. (illüst.)
4. Rzayeva R. Sirabçay və Qahabçay hövzəsinin Arxeoloji abidələri. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2019, 216 səh.



***Naxçıvan Dövlət Universiteti***
***E-mail:Sshacıyevaa@gmail.com***
***E-mail:turkanq30@gmail.com***

**Siddiga Hajiyeva**
**Turkan Guliyeva**


## ARTISTIC FEATURES OF CERAMIC ART


Pottery, one of the main fields of ancient art, is a combination of painting, sculpture and graphics. The study of pottery, which has ancient roots and is considered a popular art form, allows us to draw more interesting conclusions. We get detailed information about the history of pottery from the ancient settlements where materials related to this art form were found. The art of pottery is considered one of the most valuable material and cultural heritage for all mankind. Medieval ceramics are distinguished by their shape and content, as well as decorative features. In general, the history of human civilization for millennia has been measured more by the art of ceramics. This type of art is connected with the life of the people to whom it belongs throughout history and expresses its national and spiritual values, worldview, artistic and aesthetic taste.



**Key words:** *pottery, plastic form, zoomorphic utensils, ornament*

**Сиддига Гаджиева**
**Тюркан Гулиева**

## ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ КЕРАМИЧЕСКОГО ИСКУССТВА

Гончарное дело, одно из основных направлений античного искусства, представляет собой сочетание живописи, скульптуры и графики. Изучение керамики, имеющей древние корни и считающейся популярным видом искусства, позволяет сделать более интересные выводы. Подробную информацию об истории гончарного дела мы получаем от древних поселений, где были обнаружены материалы, относящиеся к этому виду искусства. Гончарное искусство считается одним из самых ценных материальных и культурных ценностей всего человечества. Средневековая керамика различается по форме и содержанию, а также декоративным особенностям. Вообще, история человеческой цивилизации на протяжении тысячелетий больше измеряется искусством керамики. Этот вид искусства связан с жизнью народа, которому он принадлежит на протяжении всей истории, и выражает его национальные и духовные ценности, мировоззрение, художественный и эстетический вкус.

**Ключевые слова:** *керамика, пластическая форма, зооморфные посуды, орнамент.*

*(AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir)*

**Daxilolma: İlkin variant: 19.01.2021**
**Son variant: 04.03.2021**